**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№285/4** **31 yanvar 2017-ci il**

## Auditorlar Palatasının Şurası yanında Komitələrin sədrlərinin təyin edilməsi barədə

Auditorlar Palatasının Şurası **qərara alır:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Komitələrin yeni strukturu barədə Palata Şurasının 2016-cı il 27 dekabr tarixli 284/6 nömrəli qərarı ilə təsdiq edilmiş komitələrin sədrləri qismində Palatanın aşağıdakı üzvləri təsdiq edilsinlər:

I. Keyfiyyətə nəzarət komitəsi – Vəli Kərimov, sərbəst auditor;

II. Auditorların peşə etikası və üzvlük komitəsi – İbiş Əliyev, sərbəst auditor;

III. Kadr hazırlığı və gənclərlə iş üzrə komitə – Abbasəli Qurbanov, “RR-VAM Beynəlxalq Audit Konsaltinq” MMC-nin direktoru;

IV. Qanunvericilik və hüquqi məsələlər üzrə komitə – Elnur İbrahimov, sərbəst auditor;

V. Beynəlxalq standartlar və metodiki təminat komitəsi – Namiq Abbaslı, “ANR Audit” MMC-nin direktoru;

VI. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə – Lamiyə Bayramova, “L.B. Audit xidməti” MMC-nin direktoru;

VII. Milli auditə dəstək və məcburi audit üzrə komitə – Zamin Hüseynov, “MAK Azərbaycan LTD” MMC-nin direktoru;

VIII. Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə – Üzeyir Fətiyev, sərbəst auditor.

2. Auditorlar Palatasının Şurası yanında komitələrin rəhbərlərinə (V.Kərimov, İ.Əliyev, A.Qurbanov, E.İbrahimov, N.Abbaslı, L.Bayramova, Z.Hüseynov, Ü.Fətiyev) tapşırılsın ki, Palatanın müvafiq struktur bölmələri ilə birlikdə iki həftə müddətində komitələrin Əsasnamələrinin layihələrini və komitələrin tərkibləri barədə təkliflərini hazırlayıb təqdim etsinlər.

3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**